**Kamran Maarif oğlu Abbasov**

**UOT:657.623:657.632.4; JEL:M40;H83;O17.**

# Azərbaycanda strateji yol xəritəsi kontekstində iqtisadiyyatda şəffaflığın artırılmasının aktual problemləri

**Xülasə**

*Tədqiqatın məqsədi – Azərbaycanda strateji yol xəritəsi kontekstində iqtisadiyyatda şəffaflığın artırılmasının aktual problemlərinin tədqiqindən ibarətdir. Bunun üçün iqtisadi proseslərin səmərəliliyində səffaflığın əhəmiyyəti açıqlanmış və mahiyyəti verilmişdir. Strateji yol xəritəsinin hədəflərinin reallaşdırılmasında səffaflığın əsas prinsiplərdən biri kimi götürülməsinin vacibliyi araşdırılmışdır. İqtisadiyyat sahələrinin ehtiyat mənbələrinin üzə çıxarılmasında və iqtisadi artıma imkan verən mənbələrin formalaşdırılmasında şəffaflığın rolu verilmişdir. Milli iqtisadiyyatın strateji hədəflərinin reallaşdırılmasında dürüst və obyektiv mühasibatlığın aparılması və maliyyə hesabtlarının hazırlanmasının əhəmiyyəti əsaslandırılmışdır. Yaxın, orta və uzaq perspektivdə strateji yol xəritəsi çərçivəsində iqtisadiyyatda səffaflığın artırılmasının aktual problemləri üzrə fikirlər ümumiləşdirilmişdir. Tədqiqatın metodologiyası – baxılan problemlərə dair iqtisadi ədəbiyyatlarda əks olunmuş yanaşmalar və mülahizələr, həmçinin praktiki fəaliyyət proseslərində özünü doğrultmuş metodoloji üslüblar əsas götürülmüşdür və tədqiqatda daha çox abstrakt dərketmədən, təhlil, sintez və ümumiləşdirmədən istifadə olunmuşdur. Tədqiqatın tətbiqi əhəmiyyəti – alınmış və əsaslandırılmış elmi-praktiki müddəalardan Azərbaycanda strateji yol xəritələrinin hədəflərinə uyğun olaraq milli iqtisadiyyatda şəffaflığın gücləndirilməsi üzrə mexanizmlərin hazırlanmasında istifadə olunmasından ibarətdir. Tədqiqatın nəticələri - strateji yol xəritəsindəki vəzifələrin həyata keçirilməsi proseslərində şəffaflıq prinsipindən səmərəli istifadə edilməsinə dair əsaslandırılmaların aparılması, yanaşmaların müəyyənləşdirilməsidir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqatda qarşıya qoyulan vəzifələr üzrə ümumiləşdirilən materiallar müasir dövrün tələbləri ilə uzlaşır və orijinal xarakter daşıyır. Əsas elmi yenilik isə hazırkı qlobal təsirin daha da artması şəraitində və strateji yol xəritəsindəki hədəflərin reallaşdırılması tədbirlərinin intensivliyinin fəal fazaya keçdiyi bir dövrdə iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində şəffaflığın əsas prinsiplərdən biri olmasının ciddi elmi-iqtisadi arqumentlərlə verilməsidir. Milli iqtisadiyyatın yeni artım mənbələrinin formalaşdırılmasında, iqtisadi proseslərin səmərəliliyinin artırılmasında şəffaflıq prinsipinin strateji rolu əsaslandırılmışdır. Yeni çağırışlar nəzərə alınmaqla iqtisadiyyatda şəffaflığın artırılması üzrə tövsiyələr işlənmiş və təkliflər hazırlanmışdır.*

***Açar sözləri:*** *strateji yol xəritəsi, iqtisadiyyatda strateji hədəflər, şəffaflıq prinsipləri, iqtisadi proseslərin səmərəlilik problemləri, iqtisadiyyatın artım mənbələrinin formalaşdırılması, iqtisadiyyatın inkişafında şəffaflığın strateji rolu.*

## Giriş

Son onilliklərdə Azərbaycanda milli iqtisadiyyatın şaxələndirilməsi və onun strukturunun təkmilləşdirilməsi istiqamətində önəmli addımlar atılmışdır. Başlıca məqsəd iqtisadi proseslərin səmərəliliyinin artırılması və şəffaflığının təmin edilməsi ilə bağlı olmuşdur. Məhz belə olduğu təqdirdə iqtisadiyyatın məhsuldar elementlər və komponentlər əsasında səmərəli təşkili, bunlarla bağlı iqtisadi islahatların sürətləndirilməsi daha tez

*© Kamran Maarif oğlu Abbasov Azərbaycan Kooperasiya Universiteti, dissertant.*
*E-mail: abbasov.kamran.m@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

mümkünləşir. Bu proseslərdə şəffaflığın artırılması məqsədilə audit institutuna və audit xidmətlərinə zərurət daha da artmaqdadır. Belə ki, iqtisadi transformasiyalar şəraitində və iqtisadi sistemin yenilənməsi dövründə auditdən səmərəli istifadə edilməsi hesabına iqtisadi inkişaf proseslərinin və mühitinin cəlbediciliyini, səmərəliliyini yüksəltmək üçün əlavə imkanlar formalaşdırılır. Bundan əlavə, qeyd etdiyimiz kimi audit institutunun səmərəli fəaliyyəti hesabına iqtisadiyyatın şəffaflığının artırılması və hesabatlılığının gücləndirilməsi problemlərini həll etmək mümkündür. Şəffaflığın təmin olunması həm də hüquqi və fiziki şəxslərin və dövlət orqanlarının məsuliyyətini artıran amillər kimi də qiymətləndirilə bilər. Şəffaflıq və hesabatların dürüstlüyünün reallaşdırılması, eyni zamanda iqtisadi inkişaf proseslərinin obyektiv təhlilini aparmağa və proqnozlar tərtib etməyə imkan verər. Ölkədə fəaliyyət göstərən şirkətlərin və müəssisələrin maliyyə-təsərrüfat yekunlarının şəffaf şəkildə açıqlanması, onların maliyyə nəticələrinə əlçatanlığın artırılması təmin olunmalıdır. Ölkənin qarşısında duran strateji iqtisadi hədəflərə çatmaq üçün çoxlu sayda inkişaf proqramlarının hazırlanması, investisiya-innovasiya layihələrinin təşkil olunması, xarici şirkətlərin və potensial investorların bu proseslərə cəlb edilməsi vacib şərtlərdəndir. Dünya təcrübəsindən yanaşdıqda, bu kimi məsələlərdə önəmli rol hazırlanan layihələrinin və hesabatların dürüstülüyü, balanslaşdırılması və şəffaflığı ilə birbaşa əlaqəlidir. Hələ, XX əsrin 70-ci illərin ortalarından başalayaraq iqtisadiyyatda şəffaflıq və hesabatlılıq prinsiplərinə önəm artırılmışdır. Xüsusilə, firma və müəssisələrdə bu qəbildən olan proseslərə nəzarət prinsiplərinin mühümlüyü ön plana çəkilmişdir və bunlarla bağlı audit institutunun formalaşdırılması və inkişafına diqqət yüksəldilmişdir. Eyni zamanda, auditin ümumi fəaliyyət prinsipləri, həmçinin onun müxtəlif formaları üzrə standartlar toplusu hazırlanmış və onların təkmilləşdirilməsi istiqamətində məqsədli işlər aparılmışdır. Məsələn, ABŞ-da bu tip məsələlərə daha ciddi diqqətin göstərilməsi təmin edilmişdir, məqsəd müəssisə və şirkətlərin fəaliyyətində şəffaflıq və hesabatlılıq ilə bağlı prinsiplərin, meyarların optimal müəyyənləşdirilməsi və onlara əməl edilməsindən ibarət olmuşdur. Bu proseslərdə, audit fəaliyyəti həm də iqtisadi inkişaf proseslərində mümkün risklərin yaranma səbəblərinin öyrənilməsində, təhlil olunmasında və onların mənfi fəsadlarının minimuma endirilməsi üçün sistemli tədbirlərin görülməsində xeyli səmərəli mexanizm kimi qiymətləndirilir. Audit fəaliyyəti ilə məşğul olan auditorlar heç bir struktur bölməsinin və ya rəhbərliyin təsiri altında ola bilməz və belə olduğu təqdirdə onların hazırladıqları hesabatların səmərəli olması da qeyri-mümkündür [1]. Buna görə də, hər bir ölkədə audit xidməti üzrə mühüm standartların müəyyənləşdirilməsi və audit institutunun iqtisadi inkişaf proseslərində rolunun artırılması tədbiləri görülməlidir.

**Azərbaycanda strateji yol xəritəsinə uyğun olaraq iqtisadi proseslərdə şəffaflıq problemlərinə yanaşmalar**

Müasir dövrdə iqtisadi proseslərin şəffaflığının artırılması, "kölgə" iqtisadiyyatının genişlənməsinin qarşısının alınması, korrupsiya hallarına gətirib çıxaran məsələlərin xüsusi diqqət mərkəzində saxlanılması tələb olunur. Bu istiqamətlərdə səmərəli mexanizm kimi auditin çox funksiyalı rolunu qeyd etmək lazımdır. Yəni iqtisadiyyatın şəffaf təməllər, dürüst maliyyə hesabatları və mühasibatlıq sənədləri əsasında təşkil olunması, inkişaf etdirilməsi cəmiyyətdə və iqtisadiyyatda sağlam mühitin formalaşması, ədalətlilik prinsipinin qorunması və ehtiyatların üzə çıxarılması üçün əlverişli şəraitin yaradılması ümimilikdə iqtisadiyyatın səmərəlilik problemlərinin həllində mühüm əhəmiyyət kəsb edir. Belə ki, audit xidmətinin səmərəliliyi üzrə uzunmüddətli araşdırmalar göstərmişdir ki, bu xidmətin daha uğurlu və məqsədli şəkildə fəaliyyət göstərməsi üçün digər struktur vahidləri ilə sıx əməkdaşlığına və qarşılıqlı fəaliyyətinə ehtiyac vardır. Başqa bir problem, yüksək peşəkarlığa malik, müstəqil, savadlı və qərəssiz auditorların hazırlanması və yetişdirilməsindən ibarətdir. Bütün bu amillər



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

baxımından, iqtisadi islahatlar şəraitində auditin rolunun artırılması, onun funksiyalarının maksimum səmərəli olaraq həyata keçirilməsi vacib şərtlərdəndir. Audit resurslarından və audit formalarından, metodlarından yerində və sistemli şəkildə istifadə edilməsi qarşıya qoyulmuş məqsədə çatmaqda mühüm şərtlərdəndir [2]. Şəffaflığın artırılması və maliyyə-uçot hesabatlarının dürüstlüyünün təmin olunmasında audit daha çox səmərə verən mexanizmlərindən biri kimi xarakterizə olunur. Bundan əlavə, audit bazar iqtisadiyyatı mexanizmləri əsasında iqtisadi inkişaf modelinin möhkəmləndirilməsində maliyyə intizamının gücləndirilməsində əhəmiyyətli funksiyaları reallaşdırır. Audit, eyni zamanda fəaliyyət subyektində normativ hüquqi aktların tələblərinin qorunmasına, ümumi qəbul edilmiş standartlara daha ciddi yanaşılmasına bu kimi proseslərə operativ, davamlı, analitik, kompleksilik formalarında münasibət göstərməklə, fəaliyyət subyektinin mövcud qanunvericilik şərtləri çərçivəsində davamlı və etibarlı işini təmin edir, təşkilatın imicini artırır, onu arzuolunmayan situasiyalardan uzaq durmağa sövq edir

Şəffaflığın gözlənilməsi, onun təməl prinsiplərinə əməl olunması, müəssisə və təşkilatlarda maliyyə hesabatlarının dürüstlüyünə, iqtisadi inkişaf proseslərinin və bütövlükdə, ölkənin iqtisadi sisteminin şəffaflığına, sabitliyinə, dayanıqlılığına etibarın çoxalması və inamın artması kimi qiymətləndirilə bilər. Digər tərəfdən, etibarlı və təkmilləşdirilmiş audit xidməti-audit institutu kölgə iqtisadiyyatının minimuma endirilməsi, korrupsiya hallarının qarşısının alınması, iqtisadi cinayətlərinin səviyyəsinin aşağı düşməsi baxımından kifayət qədər əhəmiyyət kəsb edir. Bazar iqtisadiyyatı şəraitində audit daha geniş məzmuna və fəaliyyət istiqamətinə malikdir. Audit müəssisələrdə uçot-hesabat işlərinin qiymətləndirilməsi ilə yanaşı, məhsul istehsalı və satışının real planlaşdırılması, müqavilələr üzrə istehsal öhdəliklərinin yerinə yetirilməsi, istehsal proqramının gərginliyi, məhsul quruluşunun və çeşidinin dəyişməsi, istehsal ahəngdarlığının müəyyənləşdirilməsi, məhsulun keyfiyyəti, satış həcmi, maliyyə vəziyyəti və s. göstəricilərin qiymətləndirilməsini özündə əks etdirir [3, s. 9].



Son illərdə milli iqtisadiyyat sahələrinin strateji hədəflərinin müəyyənləşdirilməsi ilə bağlı olaraq daha kəsərli və məhsuldar iqtisadi mexanizmlərin tətbiqi genişlənməkdədir və bütün bunlar milli iqtisadiyyatın perspektiv sektorları üzrə strateji yol xəritəsində nəzərdə tutulmuş hədəflərə çatmaqda müsbət rol oynamaqdadır [4]. Eyni zamanda, ölkənin maliyyə bazarının dayanıqlılığının artırılması, maliyyə xidmətlərinin strukturunun genişləndirilməsi istiqamətində daha konkret strateji hədəflərin müəyyənləşdirilməsi də diqqət çəkən hallardandır və bunlar öz əksini ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmiş, “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi”ndə ifadə etmişdir [5]. Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsinin strateji baxışlarında 2020-ci ilədək olan dövr üçün maliyyə sisteminin potensialının gücləndirilməsi və risk elementlərinin azaldılması tədbirləri çərçivəsində nəzərdə tutulmuşdur. Eyni zamanda, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışlar maliyyə xidmətlərinin daha da təkmilləşdirilməsi və geniş çeşidli maliyyə xidmətlərinin formalaşdırılmasına imkan verməlidir. Bütün bunlar, eyni zamanda iqtisadi proseslərdə şəffaflığın artırılmasında auditin fəaliyyətidə müasir yanaşmaları şərtləndirir. Bu proseslərdə mühüm əhəmiyyət kəsb edən strateji tədbirlərdən biri də daxili auditin transformasiyası ilə bağlı problemlərin öyrənilməsi və onun optimal həlli yollarının müəyyənləşdirilməsidir. Auditin effektivlik səviyyəsinin təhlili və müəyyənləşdirilməsi üzrə tədqiqatlar göstərmişdir ki, iqtisadiyyatda auditin effektivlik səviyyəsinin təhlilinin səmərəli təşkili, onun adekvatlığının müasir dövrün tələblərinə uyğun müəyyənləşdirilməsi, ümumilikdə iqtisadi sistemin sabit və gəlirlilik prinsipləri əsasında fəaliyyət göstərməsinə imkan verir. Bu proseslərdə auditin spesifik meyarları ayrı-ayrılıqda ciddi nəzərə alınmalı, auditin təşkilində mühüm obyektlər və predmetlər kimi çıxış edən elementlərin dürüst baxılmasına, şəffaf

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yoxlanılmasına, maksimum nöqsanların üzə çıxarılmasına, onların aradan qaldırılmasına, audit nəticələrinin ciddi arqumentlər və obyektiv məlumatlar əsasında tərtib edilməsinə, yoxlanılan fəaliyyət subyektinin zəif və üstün cəhətlərinin qərəssiz qiymətləndirilməsinə, mövcud iqtisadi potensialdan səmərəli istifadə olunmasına nail olunmalıdır [6].

İqtisadiyyatın müxtəlif sahələrində şəffaflığın təmin olunması üçün audit institutunun inkişafı və audit fəaliyyətinin genişləndirilməsi istiqamətində zəruri institusional və qanunvericilik mexanizmləri formalaşdırılmış, ölkə qanunları qəbul olunmuş, audit fəaliyyətinin strateji önəmi ön plana çəkilmiş və auditorların – audit fəaliyyətini həyata keçirən yüksək peşəkar kadrların hazırlanması məsələlərinə diqqət artırılmışdır. Audit sisteminin inkişaf etdirilməsi və auditor fəaliyyətinin təmin olunması üçün meyarlar və prinsiplər, standartlar, qaydalar və prosedurlar hazırlanmış və onların yerinə yetirilməsi üçün müəyyən mexanizmlər tətbiq olunmuşdur. Eyni zamanda, iqtisadi fəaliyyət subyektlərinin fəallığının artırılmasında və onların maksimum şəffaf şəraitdə fəaliyyət göstərməsində, mühasibat və maliyyə hesabatlarının dürüst formada hazırlanmasında auditin potensialından daha geniş istifadə edilməsi imkanları yaranmış şərait formalaşdırılmışdır [7]. Auditin funksional vəzifələrindən və təşkilati strukturundan asılı olaraq, mühüm meyarlardan olan müstəqillik və sərbəstlik prinsiplərinin qorunmasına ciddi önəm verilmişdir [8]. Bundan əlavə, digər meyarlar sırasında auditin səlahiyyət dairəsi, auditin hesabatlılıq prinsipi, onun əsas məqsədləri və missiyası, strateji prioritetləri və s. yer almışdır. Auditin proseduru və metodologiyası baxımından vacib meyarlar kimi auditin daimilik prinsipi əsasında təşkil edilməsi, risklərlə bağlı planlaşdırmalar, auditorların vəzifələrinin və tapşırıqlarının müəyyənləşdirilməsi, auditin müasir texnologiyalar əsasında təşkili üçün xüsusi proqram təminatının tətbiqi, audit xidmətinin digər daxili qurumlarla və kənar təşkilatlarla qarşılıqlı fəaliyyət əlaqəsinin formalaşdırılması, audit resurslarının mənbələrinin aydınlaşdırılması, əməkdaşların peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi, onların motivasiyasının təmin olunması və digərləri daha çox fərqlənirlər.



Audit çoxfunksiyalı fəaliyyət sahəsi kimi də xarakterizə oluna bilər. Bu baxımdan auditin bir çox növləri mövcuddur və dünya təcrübəsində onları müxtəlif cür təsnifləşdirirlər. Məsələn, çox vaxt auditi informasiyaların istifadəçilərinə görə, xarici və daxili, qanunvericiliklə bağlı olaraq, məcburi və təşəbbüslü, audit obyektlərinə görə, təyinatı üzrə, həyata keçirilmə vaxtı və yoxlamanın xarakteri üzrə aparılan auditlərə bölürlər. Audit obyektləri üzrə bölgüdə subyektlər kimi bank və sığorta təşkilatları əsas yer tutur. Bundan əlavə bu tip audit üzrə obyektlər ümumi audit və dövlət auditi kimi də xarakterizə olunur. Təyinatı üzrə aparılan auditlərin əsas istiqamətlərinə maliyyə hesabatlarının auditi, verginin auditi, qiymət, idarəçilik, təsərrüfat fəaliyyətlərinin auditləri və s. daxildir. Bunlarla bərabər, auditin digər növləri kimi uyğunluq auditi, əməliyyat auditi, dövlət orqanlarının tapşırığı ilə ortaya zərurət kimi çıxan məcburi, yəni icbari audit və digərləri də diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, dövlət orqanlarının tapşırığı ilə ortaya zərurət kimi çıxan məcburi və ya icbari audit dövlət tənzimlənməsi mexanizmləri geniş tətbiq olunan ölkələrdə daha çox istifadə olunur. Bu məqsədlərlə çox hallarda xüsusi orqanlar da təsis olunur və onların fəaliyyətində dövlət mülkiyyətində olan obyektlərin, icra strukturlarının, dövlət agentliklərinin və müəssisələrinin auditi daha geniş yer tutur. Digər tərəfdən maliyyə hesabatlarının yüksək standartlar səviyyəsində hazırlanması və mühasibatlıq meyarlarının qorunması istiqamətində auditorların qərəzsiz və məhsuldar fəaliyyəti kifayət qədər mühüm əhəmiyyət kəsb edir. Bunun üçün ölkəmizdə auditor xidmətinin dövlət tənzimlənməsini daha səmərəli təşkil etmək, auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə yönəlmiş müvafiq normativ aktların layihələrini, tədbirlər sistemini hazırlamaq, dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərini müdafiə etmək, öz fəaliyyətində qanunvericilik

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

aktlarından və normativ hüquqi aktlardan irəli hələn tələblərə auditorlar tərəfində riayət edilməsinə nəzarət etmək məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatası yaradılmış və bu Palata dünyanın 30-dan çox ölkəsinin audit və mühasibatlıq təşkilatları ilə əməkdaşlıq münasibətləri yaratmış və Azərbaycanda audit institutunun inkişafı istiqamətində zəruri tədbirlərin görülməsinni təmin etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev auditor xidmətinin rolunu qiymətləndirərkən bildirmişdir ki, audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında təkmilləşdirilməsi ölkə iqtisadiyyatında maliyyə şəffaflığını, büdcə vəsaitlərindən təyinatına uyğun istifadəni təmin etməklə, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət edir [9].

**Strateji yol xəritəsnin hədəfləri çərçivəsində Azərbaycanda iqtisadiyyatın şəffaflığının yüksəldilməsi məsələləri və perspektivləri**

Son illərdə Azərbaycanda mövcud iqtisadi sistemin köklü transformasiyası prosesləri gedir, iqtisadi və struktur islahatları aparılır, yeni mərkəzi və regional idarəetmə strukturları yaradılır, bunlarla bərabər illərlə mövcud olan ənənəvi iqtisadi mexanizmlərin dəyişdirilməsi və yenilənməsi, beynəlxalq təcrübəyə uyğunlaşdırılması məsələləri diqqət çəkir. Bunlarla bağlı olaraq iqtisadiyyatda şəffaflığın artırılması və hesabatlılığın gücləndirilməsi, təsərrüfat subyektlərinin qanunvericilikdə nəzərdə tutulmuş intizamının yüksəldilməsi, yenilənmiş vergi qanunvericiliyinə ciddi şəkildə əməl edilməsi, təqdim olunan maliyyə hesabatlarının və mühasibatlıq sənədlərinin dürüstlüyünün təmin olunması ciddi əhəmiyyət daşımaqdadır, digər tərəfdən bu qeyd olunan proseslərdə audit fəaliyyətinin maksumu səmərəli təşkili məsələləri ön plana çıxmışdır. Bunlarla əlaqədar olaraq diqqət çəkən iki qrup amilləri qeyd etmək istərdik: iqtisadi transformasiyalar dövründə həyata keçirilən strateji vəzifələrin və tədbirlərin şəffaflığının artırılmasında və hesabatlılığın gücləndirilməsində audit institiutunun strateji rolu birmənalı şəkildə qiymətləndirilməli və buna uyğun saistemli, ardıcıl tədbirlərin görülməsi təmin edilməlidir. İqtisadi islahatlar şəraitində vergi sisteminin işləkliyi və maliyyə intizamının vacibliyi baxımından, ölkədə vergiqoyma bazasının şəffaflığının təmin edilməsi, iqtisadi inkişaf prosesləri iştirakçılarının, hüquqi və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyətində hesabatlılığının gücləndirilməsi mexanizmləri hazırlanmalı və tətbiq olunmalı və bu proseslərdə audit institunun funksiyaları optimal olaraq müəyyənləşdirilməlidir.

Hazırda strateji yol xəritələrinin hədəflərinə nail olmaq üçün həyata keçirilən tədbirlərin əhatəsi xeyli genişlənmiş və intensivləşmişdir. Bu kontekstdə ölkənin iqtisadi sistemində, mərkəzi və yerli idarəetmə orqanlarında, sənaye müəssisələrində və təsərrüfat subyektlərində şəffaflığın artırılması və hesabatlığın təminatı məsələləri kifayət qədər aktuallıq təşkil etməkdədir. Həmin proseslərdə auditin rolunun yüksəldilməsi və eyni zamanda, audit institutunun inkişaf etdirilməsi vəzifəsi ortaya çıxır. Belə ki, milli iqtisadiyyat sahələrinin strateji hədəflərinin müəyyənləşdirilməsi ilə bağlı artıq yeni iqtisadi mexanzimlərin tətbiqi genişlənməkdədir və bütün bunlar milli iqtisadiyyatın perspektiv sektorları üzrə strateji yol xəritəsində nəzərdə tutulmuş hədəflərə çatmaqda müsbət rol oynamaqdadır. Göstərilən iqtisadi fəaliyyət istiqamətlərində şəffaflıq və hesabatlılıq prinsiplərinin təmin olunması problemləri qalmaqdadır və hesab edirik ki, audit xidmətinin genişləndirilməsi hesabına iqtisadi fəaliyyət proseslərinin daha səmərəli təşkili mümkün olar. Qeyd edək ki, audit institutunun qanunvericilik bazasının gücləndirilməsi tədbirləri də vacib məsələr kimi xarakterizə olunur və Azərbaycanda audit institutunun inkişaf etdirilməsi ilə əlaqədar qanunvericilik bazasının gücləndirilməsi istiqamətində önəmli addımlar atılmış, müvafiq qanunların qəbul edilməsi təmin edilmişdir və 16 sentyabr 1994-cü ildə “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [10]. Qeyd olunan strateji vəzifələrə uyğun olaraq Azərbaycanda audit institutunun aktual məsələlərinin kompleks və sistemli şəkildə baxılması, həll edilməsi və təsirli tədbirlərin örülməsi milli iqtisadiyyatda



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

şəffaflığın artırılması ilə bilavasitə əlaqəlidir. Bundan başqa ölkəmizdə audit fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri institusional və qanunvericilik mexanizmləri formalaşdırılmışdır. Ölkəmizdə audit sisteminin inkişaf etdirilməsi və auditor fəaliyyətinin təmin olunması üçün meyarlar və prinsiplər, standartlar, qaydalar və prosedurlar mövcuddur. Bu baxımdan, audit insitutunun iqtisadi inkişaf proseslərinin şəffaflığının artırılmasında və hesabatlılığının dürüstlüyündə rolunun yüksəldilməsi, bununla bağlı zəruri tədbirlərin görülməsi, ümumilikdə audit fəaliyyətinin əhəmiyyətinin obyektiv olaraq qiymətləndirilməsi istiqamətində bir sıra tədbirlərin davamlı şəkildə görülməsini qeyd etmək olar.

Ölkəmizdə audit fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri institusional və qanunvericilik mexanizmləri formalaşdırılmışdır, bununla bağlı olaraq, audit sisteminin inkişaf etdirilməsi və auditor fəaliyyətinin təmin olunması üçün meyarlar və prinsiplər, standartlar, qaydalar və prosedurlar müəyyənləşdirilmişdir. İqtisadi inkişaf proseslərinin sürətləndiyiyi bir dövrdə auditin çoxfunksiyalı fəaliyyətindən səmərəli istifadə edilməsi məsələləri vacibdir [11]. Belə bir şəraitdə audit bütün hallarda nəzarət funksiyasını yerinə yetirməklə bərabər, həm də məsləhət xarakterli faydalı təkliflər də formalaşdırmaq potensialına malikdir. “Auditin idarəetmə funksiyasının böyük bir hissəsi onun nəzarət və yoxlama ilə bağlı fəaliyyətində açıla bilər” [ 12, s.15]. Son illərdə Azərbaycanda iqtisadi fəaliyyət sahələrində şəffaflığın və dürüstlüyün, hesabatlılığın təminatı problemlərinə yanaşmalar yeni müstəviyə qaldırılmışdır. Məsələn, vergiqoyma bazasının şəffaflığı istiqamətində köklü islahatlar aparılmaqdadır və bu amillər baxımından, auditi strateji rolu artmaqdadır. Belə ki, şəffaflığın artırılması və maliyyə-uçot hesabatlarının dürüstlüyünün təmin olunmasında audit daha çox səmərə verən mexanizmlərindən biri kimi xarakterizə olunur. Ölkəmizdə maliyyə intizamının gücləndirilməsi məqsədilə ardıcıl tədbirlər görülməklə bərabər, maliyyə sistemi və nühasibat uçotu beynəlxalq standartlar səviyyəsinə qaldırılmış, bu sahədə dünya təcrübəsindən bəhrələnməyə üstünlük verilmişdr. Bu amillər baxımından, audit institutunun təşkili məqsədilə qanunvericilik bazasının formalaşdırılmasına və müvafiq qanunların qəbul edilməsi istiqamətində müəyyən atdımlar atılmışdır. Eyni zamanda, ölkənin maliyyə bazarının dayanıqlılığının artırılması, maliyyə xidmətlərinin strukturunun geniAşləndirilməsi istiqamətində daha konkret strateji hədəflərin müəyyənləşdirilməsi də diqqət çəkən hallardandır. Bunlarla yanaşı, Azərbaycan Respublikasının Hesablama Palatası Kollegiyasının 11 mart 2009-cu il tarixli qərarı ilə “Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən maliyyə-büdcə nəzarəti tədbirlərinin hazırlanması, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Qaydaları” təsdiq edilmişdir [13]. Məlumdur ki, milli iqtisadiyyat sahələrinin strateji hədəflərinin müəyyənləşdirilməsi ilə bağlı artıq yeni iqtisadi mexanizmlərin tətbiqi genişlənməkdədir və bütün bunlar milli iqtisadiyyatın perspektiv sektorları üzrə strateji yol xəritəsində nəzərdə tutulmuş hədəflərə çatmaqda müsbət rol oynayacaqdır və bu istiqamətdə həyata keçirilən tədbirlər COVİD – 19 pandemiyasının mənfi təsirinə baxmayaraq intensiv olaraq qalmaqdadır. Belə ki, səmərəli korporativ idarəetmənin, iqtisadiyyatın böyüdülməsinə mövcud imkanlardan bəhərələnməyin vacib istiqamətlərindən biri də burada hesabatlılıq və şəffaflıq problemlərinin həll olunmasıdır. Bu proseslərin müxtəlif həlqələrində mövcud olan idarəetmə və nəzarət sistemlərinin şəffaf işləmələri, dürüst məlumatlara əsaslanan hesabatlılığı təmin etmələri vacib şərtlərdəndir. Ümumiyyətlə, ölkənin maliyyə sektorunun investisiya mühitinin cəlbediciliyinin və maliyyə sektoruna etimadın artmasında şəffaflığın və hesabatlılığın mühüm əhəmiyyəti vardır [14]. Bu proseslərdə səmərəli korporativ idarəetmənin əsas amillərindən və məqsədlərindən biri təkmil hesabatlılığın və şəffaflığın təmin olunmasıdır. Bu mənada şirkətin maliyyə hesbatlılığının dəqiqliyinin və düzgünlüyünün təmin olunmasına nəzarətin həyata keçirilməsində auditin müstəsna əhəmiyyəti və rolu diqqət çəkir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Dünya Bankının mütəxəssisələrinin apardığı araşdırmalarda Azərbaycanda dövlətə məxsus müəssisələrdə korporativ idarəetmə və mülkiyyət problemləri təhlil olunmuşdur və qiymətləndirilmişdir. Ümumi nəticələrdən biri də ondan ibarətdir ki, ölkəmizdə fəaliyyət göstərən audit institutu və audit fəaliyyəti hələ də tam olaraq müstəqil deyildir və bu sahədə müstəqilliyin, azadlığın təmin olunması, qərəzliliyin aradan qaldırılması, dürüstlüyə və şəffaflığa nail olunması məsələsinə daha çox diqqət yönəldilməlidir [15]. Digər bir beynəlxalq maliyyə qurumunun – Asiya İnkişaf Bankının şəffaflıq vasitəsilə etimadın yaradılmasına dair sənədində göstərilir ki, şəffaflıq və hesabatlılıq inkişafın səmərəliliyinin təməl daşlarıdır. Bunun üçün bütün əməliyyatlarda hesabatlılq və şəffaflıq təmin olunmalı, fəaliyyətlə bağlı informasiyalara çıxışlar yaxşılaşdırılmalı, ikitərəfli və çoxtərəfli informasiya mübadilələri aparılmalı, informasiya və sənədlərin əldə edilməsi üçün müraciətlər vaxtı-vaxtında cavablandırlmalı, informasiya və biliklərin bölüşülməsi mədəniyyəti inkişaf etdirilməlidir. İqtisadiyyatın şaxələndirilməsində olan potensialdan səmərəli istifadə olunmasında sistemli və obyektiv audit fəaliyyəti hesabına maksimum cəlbedici investisiya mühitinin yaradılması mümkündür. Bu halda yerli və xarici investorların bu sektorda iqtisadi fəallığını təmin etmək üçün əlavə potensial formalaşır. Ümumilikdə, etibarlı və təkmilləşdirilmiş audit fəaliyyəti institutu kölgə iqtisadiyyatının minimuma endirilməsi, korrupsiya hallarının qarşısının alınması, iqtisadi cinayətlərinin səviyyəsinin aşağı düşməsi baxımından xeyli səmərəli maliyyə aləti hesab olunur. Digər tərəfdən, fəaliyyətin səmərəli olmasında, gəlirlərin və xərclərin uzunmüddətli dövr üçün optimallaşdırılmasında, israfçılıq mənbələrinin müəyyənləşdirilməsində auduitin önəmli rolu vardır. Belə ki, ayrı-ayrı iqtisadiyyat sahələrinin formalaşan iqtisadi fəallıq potensialından və son illərdə yaradılan güclü infrastruktur imkanlarından səmərəli şəkildə bəhrələnmək üçün hazırlanan və reallaşdırılması nəzərədə tutulan layihələrin uğurlu olmasında audit təhlilləri və qiymətləri ciddi önəm kəsb edir. Audit fəaliyyəti sosial-iqtisadi inkişafın bütün mərhələlərində önəmli funksiyaları yerinə yetirirlər. Professor V.T.Novruzov belə hesab edir ki, beynəlxalq audit standartlarının tətbiqi Azərbaycanda həyata keçirilən iqtisadi islahatların ayrılmaz hissəsidir, ölkəmizdə bazar iqtisadiyyatına keçid mərhələsinin başa çatmasına uyğun olaraq və dövlət başçısının tövsiyə və tapşırıqları hesabına həyata keçirilir. Bunlara beynəlxalq audit standartlarının tətbiqinin hüquqi və normativ bazasının davamlı olaraq təkmilləşdirilməsi və yenilənməsi, auditin keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi, auditor kadrlarının hazırlanması və s. aiddirlər.

Hər bir ölkədə şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə demokratiyanın mühüm ünsürlərindən biri kimi qiymətləndirilir [16]. Hesab edirik ki, bu konteksdə audit fəaliyyətinin rolu və funksiyaları xeyli tələb olunandır və auditin prioritetliyinin təmin olunması strateji vəzifələrdən biri kimi qiymətləndirilməlidir. Bu məqsədlə, bir sıra məsələlərə daha çox diqqət yetirilməlidir: ölkəmizdə audit institutunun səmərəliliyinin artırılması, audit fəaliyyətinin müasir çağırışlardan irəli gələn vəzifələr kontekstində təmin olunması tədbirlərinin əhatəsi genişləndirilməlidir; audit fəaliyyəti ilə məşğul olan şirkətlərin və firmaların qərəzsiz işləmələri, müstəqil olmaları üçün audit xidməti sektorunda sağlam rəqabət mühiti yaradılmalı və maliyyə xidmətləri bazarının şəffaflığına xüsusi diqqət yetirilməlidir.

**Nəticə**

İqtisadi inkişaf prosesləri qlobal iqtisadi təsirlər nəticəsində daha da mürəkkəbləşmiş və yeni çağırışlarla üz-üzə qalmışdır. Belə bir şəraitdə ölkə iqtisadiyyatında şəffaflığın artırılması, hesabatlılığın təminatında auditin rolunun gücləndirilməsi, eyni zamanda, kölgə iqtisadiyyatının minimum səviyyəyə salınması üçün bir qrup məsələlərə xüsusi diqqət yetirilməlidir: ilk növbədə, iqtisadiyyatın bütün sahələrində şəffaflığın və hesabatlılığın



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təminatı məsələlərinə strateji yanaşmalar formalaşdırılmalıdır; iqtisadi fəaliyyət subyektlərində mühasibat uçotunun və maliyyə sisteminin əsas hesabatlarının, qaydalarının və normativlərin hazırlanması və təşkilində beynəlxalq standartlardan çıxış etməklə, bu kimi sənədlərin şəffaflığı təmin olunmalıdır; iqtisadi fəaliyyət istiqamətlərində mövcud proseslərinin şəffaflığı və hesabatlılığının təminatında auditin rolunun artırılması məqsədilə, uzunmüddətli dövr üçün fəaliyyət strategiyası hazırlanmalı və reallaşdırılmalıdır.

## Ədəbiyyat


1. Swanson D. Swanson on Internal Auditing: Raising the Bar. ITPro. ITGovernance, 2010.-318 p.
2. Лимская Декларация Руководящих Принципов Контроля. Лима, 17-26 октября 1977 года. http://www.iia-ru.ru.
3. Abbasov İ.M. Audit. Bakı, 2013.-544 c.
4. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
5. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq olunmuşdur.
6. International Auditing Practice Statements (IAPSs). Auditing Derivative Financial Instruments https://www.nba.nl.
7. Организация и место аудита в рыночной экономике – www.nikolle.narod.ru.
8. Неустроев М.Ю. Оценка рисков в аудите при выборе аудиторских доказательств. Дисс. канд. экон. наук. Иркутск, 2011. – 161 с.
9. Novruzov V.T. Auditor xidməti Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsində mühüm rol oynayır. http://www.respublica-news.az.
10. Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 16 sentyabr 1994-cü il, № 882.
11. Novruzov V.T. Sosial-iqtisadi inkişafın müasir mərhələsində auditor xidməti. http://anl.az/down/meqale/azerbaycan/2010/aprel/115373.htm.
12. Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən maliyyə-büdcə nəzarəti tədbirlərinin hazırlanması, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Qaydaları. Azərbaycan Respublikasının Hesablama Palatası Kollegiyasının 11 mart 2009-cu il tarixli Q-10 nömrəli qərarı ilə təsdiq edilmişdir.
13. Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən maliyyə-büdcə nəzarəti tədbirlərinin hazırlanması, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Qaydaları. Azərbaycan Respublikasının Hesablama Palatası Kollegiyasının 11 mart 2009-cu il tarixli Q-10 nömrəli qərarı ilə təsdiq edilmişdir.
14. Korporativ idarəetmədə hesabatlılıq və şəffaflıq problemləri. http://audit.gov.az/uploads/Asim_zulfuqarzade_konfarns_2018.pdf.
15. Azərbaycan Respublikası: Dövlətə məxsus müəssisələrdə korporativ idarəetmə və mülkiyyət. The World Bank, 2017. 118 c.
16. Novruzov V.T. Sosial-iqtisadi inkişafın müasir mərhələsində auditor xidməti. Azərbaycan -2010. -13aprel. -s.10. http://anl.az/down/meqale/azerbaycan/2010/aprel/115373.htm.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Камран Маариф оглу Аббасов***

***Актуальные проблемы повышения прозрачности в экономике в контексте стратегической дорожной карты в Азербайджане***

***Резюме***

*Целью исследования является изучение текущих проблем повышения прозрачности в экономике в контексте стратегической дорожной карты в Азербайджане. Для этого анализирована важность обеспечения прозрачности для эффективности экономических процессов. Изучена важность принятия прозрачности в качестве одного из основных принципов в реализации целей стратегической дорожной карты. Дана роль прозрачности в выявлении источников резервов секторов экономики и формировании источников, обеспечивающих экономический рост. Обоснована важность объективного учета и подготовки финансовой отчетности в реализации стратегических целей национальной экономики. В рамках стратегической дорожной карты на ближайшую, среднесрочную и долгосрочную перспективу обобщены взгляды на актуальные вопросы повышения прозрачности в экономике. Методология исследования – в статье отражены подходы к рассматриваемым вопросам, а также методологические методы, эффективные для улучшения практической деятельности в этой сфере. Практическая значимость исследования – заключается в использовании обоснованных научно-практических положений при разработке механизмов повышения прозрачности национальной экономики в соответствии с целями стратегических дорожных карт в Азербайджане. Результаты исследования заключаются в обосновании и определении подходов к эффективному использованию принципа прозрачности при реализации задач стратегической дорожной карты. Оригинальность и научная новизна исследования - материалы по задачам, поставленным в исследовании, соответствуют требованиям современности и отличаются своей оригинальностью. Основным научным результатом является предоставление научных и экономических аргументов в пользу того, что прозрачность является одним из основных принципов повышения эффективности экономики в то время, когда увеличивается глобальное негативное влияние и интенсивность мер по достижению целей действующей стратегической дорожной карты. Обоснована стратегическая роль принципа прозрачности в формировании новых источников роста национальной экономики и повышении эффективности экономических процессов. С учетом новых вызовов разработаны рекомендации и предложения по повышению прозрачности экономики.*

***Ключевые слова**: стратегическая дорожная карта, стратегические цели экономики, принципы прозрачности, проблемы эффективности экономических процессов, формирование источников экономического роста, стратегическая роль прозрачности в экономическом развитии.*



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Kamran Maarif Abbasov***

***Current problems of increasing transparency of the economy in the context of the strategic road map in Azerbaijan***

***Summary***

*Purpose of the research – is to study the current problems of increasing transparency in the economy in the context of the strategic road map in Azerbaijan. For this purpose, the importance of transparency for the efficiency of economic processes is analyzed. The importance of adopting transparency as a basic principle in the implementation of the objectives of the strategic road map is explored too. The role of transparency is given in identifying the sources of reserves of sectors of the economy and the formation of sources that ensure economic growth. The importance of objective accounting and preparation of financial reporting in the implementation of the strategic goals of the national economy is justified. Within the framework of the strategic road map for the near, medium and long term, views on topical issues of increasing transparency in the economy are summarized. Research methodology – the article reflects approaches to the issues under consideration, as well as methodological methods effective for improving practical activities in this sphere. The practical significance of the study is the use of scientific and practical provisions in the development of mechanisms to increase the transparency of the national economy in accordance with the goals of strategic road maps in Azerbaijan. The practical importance of a research – is to justify and identify approaches to the effective use of the principle of transparency in the implementation of the objectives of the strategic road map. Originality and scientific novelty of the research - materials on the tasks in the study meet the requirements of current time and are distinguished. The main scientific result is to provide scientific and economic arguments that transparency is one of the basic principles of improving economic efficiency at a time when the global negative impact and intensity of measures to achieve the goals of the current strategic road map are increasing. The strategic role of the principle of transparency in shaping new sources of growth of the national economy and improving the efficiency of economic processes is justified. Taking into account the new challenges, recommendations and proposals to increase the transparency of the economy are given in the end of the article.*

***Key words:*** *strategic road map, strategic goals of economy, principles of transparency, problems of efficiency of economic processes, formation of sources of economic growth, strategic role of transparency in economic development.*

***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***
***Daxil olub: 29.10.2021.***
***Çapa qəbul olunub: 08.11.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*